http://www.ikisahil.com

iki sahil

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

Fəxrəddin Manafov: "Hökmdarın taleyi" filmi mənim sənətimdə yeni səhifədir

"Bu sənəti dəlicəsinə sevirəm, həyatımı buna həsr etməyə hazıram, əslində həsr etmişəm və yaqin ki, ömrümün sonuna kimi də belə olacaq"

2005-ci ildən çəkilişləri başlanılmış "Hökmdarın taleyi" filminin baş qəhrəmanı Fəxrəddin Manafov və prodüsseri Vaqif Əsədullayevin APA-ya müsahibəsi

Heydər Əliyevin 2000-ci ildə imzaladığı sərəncama əsasən İlyas Əfəndiyevin "Hökmdar və qızı" faciəsi əsasında Elçin Əfəndiyevin "Hökmdarın taleyi" adı ilə ssenarilaşdırdığı filmin çəkilişlərinə 2005-ci ildə başlanıldı. Quruluşunda Ramiz Fətəliyev, Fəxrəddin Manafov və Dilşad Fatxulinin çalışdığı filmin baş prodüsseri Vaqif Əsədullayev, quruluşçu operatoru Dilşad Fatxulin, bəstəkarı isə Polad Bülbüloğludur. Filmin hazırlıq prosesindən tutmuş, çəkiliş zamanı baş verən bir çox məqamlarla bağlı "A.S.V.A Profi Studia XXI" Prodüsser Mərkəzinin və filmin baş prodüsseri Vaqif Əsədullayev, aktyorlarla master-klasslar keçirən, baş rol-İbrahim Xəlil xanın ifaçısı, xalq artisti Fəxrəddin Manafov APA-ya ekskluziv müsahibə verib.

Qeyd edək ki, film haqqında məlumatlar, çəkiliş fotoşəkilləri, filmdən bir neçə saniyəlik video kadrların ilk və ekskluziv yayım hüququ APA-ya məxsusdur.

Söhbəti Vaqif Əsədullayev başlayır:

- 2005-ci ildə sabiq mədəniyyət naziri Polad Bülbüloğlu filmin "A.S.V.A Profi Studia XXI" Prodüsser Mərkəzində hazırlanması üçün mənə müraciət etdi. Mən də bu filmi hazırlamağa məmnuniyyətlə razılıq verdim. Elə həmin il Fəxrəddin Manafovla birgə filmin hazırlıq işlərinə başladıq. Filmə bütün gücümüzü sərf etmişik, düşüncələrimizi ekrana köçürmüşük.

- Ramiz Fətəliyev özünü bu filmin rejissoru kimi təqdim edir. Hətta o, bir müddət əvvəl filmdən uzaqlaşdırılması barədə məlumatları da təkzib etmişdi. Real vəziyyət necədir?

- Vaqif Əsədullayev: Filmdə aktyorları müəllifin razılığı ilə Fəxrəddin Manafovla mən təsdiq etmişik. Eyni zamanda, Fəxrəddin Manafov filmdə aktyorlarla işləyib. Daha sonra isə bu işə Ramiz Fətəliyev və Dilşad Fatxulin cəlb olunub. Filmdəki müəyyən dövrü Ramiz Fətəliyevlə birgə işlədik, ancaq yaradıcılıq fikirlərimiz fərqli olduğundan ayrılmalı olduq. Bu ayrılıq əsərə heç bir mənfi təsirini göstərmədi. Filmi Fəxrəddin Manafov, Dilşad Fatxulin və Vaqif Əsədullayev, üçümüz birgə bitirdik.

- Fəxrəddin müəllim, Vaqif Əsədullayevlə Sizi Ramiz Fətəliyevi filmə cəlb etməyə nə vadar etdi?

- Fəxrəddin Manafov: Kino sahəsində çalışan hər bir sənətkar bilir ki, əgər filmi çəkirsənsə həmin filmin ilk gündən ərəsə olmalısan və sənin ideyan, konsepsiyan olmalıdır. Sən bilməlisən ki, nəyə görə bu əsərin üzərində işləyirsən və sonuc nə olacaq. Konsepsiya olmayan hər bir sənət, hər bir ədəbi yazı heç nədir. Bu baxımdan Vaqif Əsədullayev və mən artıq qoyulmuş konsepsiyaya istinad edərək Ramiz Fətəliyevə müraciət etdik. Birincisi, Ramiz Fətəliyevlə neçə illərdir çiyin-çiyinə bu sənətdə çalışırıq, həm də dostuq. Əgər onun başqa fikri varsa, o onun şəxsi fikridir. Biz Ramiz Fətəliyevi filmə dəvət etməyə məcbur deyildik, sadəcə ehtiyacımız var idi. Çünki hər respublikada Ramiz Fətəliyev yoxdur, o çox böyük sənətkardır. Mən aktyoram, rejissor deyiləm, ancaq ola bilər ki, mənim içimdə bu istək var və mən bunu açıq deyirəm. Mənə elə gəlir ki, nəyəsə qadirəm və nəyisə təkbaşına edə bilərəm. Ramiz Fətəliyev razılığını verdi, hətta mən sevincimdən ağlamsındım. Çox sevindik ki, üç dost, üç kino professionalı bir yerdə çalışacağıq və çox təəssüflər olsun ki, sonu belə bitdi...

- Necə bitdi?

- Fəxrəddin Manafov: Bununla bağlı bütün prosesləri açıqlamaq mənim öhdəmdə deyil. Ancaq bir şeyi demək borcumdur. Böyük, professional prodüsser, aktyor, yazıçı- dramaturq olmaq olar, ancaq hər bir işin məsuliyyətini daşımalısan. Sən düşünməlisən ki, bu işin arxasında 120 nəfər insan durub, hələ əkranlara çıxdıqdan sonra milyonlar baxacaq. Mən öz haşiyəmi dedim, kim necə başa düşürsə düşsün...

- Vaqif müəllim, Ramiz Fətəliyevlə bağlı sualları cavablandırarnda kədərləndiyinizi gizlədə bilmirsiniz...

- Ramiz Fətəliyevlə uzun illər həm birgə yaradıcılıq fəaliyyətimiz olub, həm də dostluq etmişik. 1989-cu ildə onunla birgə "BBS" kanalı üçün 7 seriyalı tarixi filmdə çalışmışıq. Eyni zamanda, İsa Nəcəfovun "Heqiqətin anı" əsərinin ekran variantını hazırlayanda və "NTV" kanalının sifarişi ilə "Qraf Kristovski" 12 seriyalı filmdə birgə, çiyin-çiyinə işləmişik. Ramiz Fətəliyev son iki filmin həm ssenari müəllifi, həm də quruluşçu rejissorudur. Heç zaman istəmədim ki, onunla şəxsi münasibətlərimiz mediada, qəzet səhifələrində müzakirə mövzusu olsun.

- Rusiyadan Dilşad Fatxulin kimi quruluşçu operatorun dəvətinə ehtiyacınız böyük idi?

- Vaqif Əsədullayev: Bəli. Film üçün bizim professional kino xadiminə, ən vacibi bugünkü texnologiyanı bilən, bilik və səriştəsi olan bir insana ehtiyacımız var idi. Dilşad Fatxulin əməkdar incəsənət xadimidir. Bununla yanaşı o, SSRİ və Rusiyanın dövlət mükafatı laureatıdır. Bizə mahz belə professional insan lazım idi. Onun professionallığı bu gün ekrandadır.

- Çəkiliş müddətində Dilşad Fatxulinlə bir problem olmadı ki?

- Fəxrəddin Manafov: Mən Dilşad Fatxulinlə 1984-cü ildən tanışam. O, son dərəcə kübar bir insandır. Heç zaman düşünüb ağlıma getirə bilmərəm ki, onun düşməni var. Belə bir insanın heç bir insanla problemi ola bilmaz. Əgər kimsə ondan nə zamansa inciyibsə hesab edərəm ki, günah Fatxulində deyil, onun özündədir. Belə böyük bir insanla çiyin-çiyinə çalışmaq, onun məsələlərinə qulaq asmaq çox böyük xoşbəxtlikdir. Onun kübarlığı ondadır ki, 70 yaşı adlamış, özü də bu sənətin bilicisi olan bir sənətkar bizim məsələnə də qulaq asırdı. Görün, bu insanın daxili mədəniyyəti, insan severliyi nə dərəcədə yüksəkdir.

- Bu filmi Sizin sənət fəaliyyətinizdə yeni bir mərhələ hesab etmək olar?

- Fəxrəddin Manafov: Mənim üçün bu film çox vacib və dəyərlidir. Belkə də bu film həyatımda ən vacib işlərdən biridir. İlk növbədə ona görə ki, 50 illiyimə qədəm qoyanda bu filmin içində idim. İkincisi, bu film nəinki Azərbaycanım, Vətənim olan Qarabağım haqqındadır. Mən Xankəndində kino günündə anadan olmuşam. Bu sənəti dəlicəsinə sevirəm və bu sənətə hər zaman həyatımı həsr etməyə hazıram. Əslində həsr etmişəm və yaqin ki, ömrümün sonuna kimi də belə olacaq. Bundan əlavə, bu sənət həyatımda çəkidiyim ilk tarixi filmdir. Bu filmdə işlədiyim üçün dostum və həmkarım Vaqif Əsədullayevə böyük minnətdaram. O, bu işə məni mecburi cəlb edib. Bu filmin konsepsiyası nəinki mənim, bütün azərbaycanlılar üçün ən aktual Qarabağ problemindən bəhs edir. Bu filmdə milli ideya önə çəkilib. Əgər bir milletin milli ideyası yoxdursa bədbəxtdir. Mənce, yalnız milli ideologiyası olan millətlərə xoşbəxt demək olar. Çox sükür ki, bizim milli ideyamız var. Mənim üçün hər bir filmin prosesi bayram, sonu isə qüssə, kədərdir. Elə bil həyatımın bir səhifəsini də bağladım. Hərdən elə olur ki, ürəyimin telləri sızıldayır...

- Sizcə, tamaşaçınız Sizi İbrahim Xəlil xan obrazında qəbul edəcək?

- Bunu deyə bilmərəm. Amma istəyirəm ki, bu filma baxanda məni Zaur kimi görməsinlər. Filma baxan Zaura unutsun. Çünki bu film mənim sənətimdə yeni səhifədir. O film isə 14 il bundan əvvəl çəkilib.

- Siz öz ifanızı necə qiymətləndirirsiniz?

- Bu filmdə birce Fəxrəddin Manafov müəllim yolunu açıb demək istəmirəm. Sadəcə, deyə bilərəm ki, kim aktyor olmaq istəyirsə bir film üçün mən onu on gün içində aktyor edə biləram. Bir filmə çəkilə bilər və hamı onu çox böyük aktyor hesab edər. Ancaq sabahı günü onun yanında olmayanda, onu yönəldən olmasa özünü göstərə bilməyəcək. Əgər sən aktyorun qarşısına dəqiq məqsədi qoysan, hətta Günəş Əliyeva kimi sənətə bu gün qədəmələrini qoyan, çəkiliş zamanı II kursda oxuyan, bu gün isə IV kursda təhsil alan tələbəni professional aktrisa edə biləərsən. Pantomim Teatrının aktyoru Pərviz İlməddin Fətəli şah obrazını yaradıb. Mənə elə gəlir ki, Fətəli şah elə belə olub. Məmməd Səfa, Kamran Yunus, Vidadi Həsənovu dünya səviyyəsində olan aktyorlar hesab edirəm. Filmdə aktyorluq sənətinə aidliyyatı olmayan Aysu Əfəndiyeva da çəkildi. O, filmdə Cavad xanın qızını yaradıb. Səməd Vurğun adına Rus Dram Teatrının aktyoru, xalq artisti Yuri Bəriyev çəkiliş meydanında professionallığı və dözümlülüyü ilə sənətkarlığını nümayiş etdirdi. Filmdə Məhriban Zəki və Sənubər İskəndərli də çəkilib. Manat Dadaşov Bakı xanının qardaşı oğlu Sonqulu ağanı oynayır. Muxtar İbadov isə filmə xəstə olaraq çəkilib. Elə bir an oldu ki, o, ağır xəstələndi və həkimlər ona tərpənməyi qeti qadağan etdilər. Amma buna baxmayaraq Muxtar İbadov Vaqif müəllimə zəng edib dedi ki, "bu film mənim vətənim haqqındadır və mən ayağa qalxıb gelib işləmək istəyirəm". Bütün aktyorlar-nın arasında Əli Cəfərovu xüsusi qeyd etmək istərdim. Bu insanın aktyorluğa qəti aldıyyatı yoxdur, o, sadəcə bank sahəsində çalışır. O filmdə Saday bəy obrazını yaradıb. Hətta lazımi trukları da özü edib. Biz Saday bəyi axtarmaqa 4 ay vaxt sərf etmişik. Tarixi film boy-buxun, gözəllik tələb edir. Bu baxımından biz Saday bəyi tapa bilmirdik. Əli Cəfərov Qubadlıdandır. Onun ürəyində də ağrılar var və o bu filmə özü müdaxilə edib girdi. Laqeyd adam bu işi heç zaman görə bilməzdi. Filmdə rus aktyorları Denlil Spivakovskiy, Aleksandr Qalibin, İlyar Şakunov, tacik aktyoru Saydo Qurbanov və başqaları da çəkilib.

- Vaqif müəllim, artıq filmin ən çətin işlərini yekunlaşdırmısınız. Hazırda hansı mərhələdəsiniz?

- Vaqif Əsədullayev: Artıq montajı bitirmişik. Avqustun sonlarında isə filmin səsləndirilməsinə başlamalıyıq. Azərbaycan dilində kiçik rollar Bakıda, əsas rollar isə "Mostfilm"in nəzdində fəaliyyət göstərən "Ton studio"da səsləndirilacək. Hazırda biz filmin bərpası və surətinin çıxarılması üçün Çexiyanın "Barrandov" və Almaniyanın tanınmış kino kompaniyası ilə danışıqlar aparırıq. Film Azərbaycanda bu günə kimi istifadə edilməyən dolbi 1/5 sisteminə səsləndirilacək. Bu İlin dekabrına kimi filmi hazır edəcəyik. Postprodakşın "Moslim" və "RBS" kinokompaniyasında keçirilacək. Ondan sonra böyük ekranlara...

- Filmin çəkilişini nə zaman bitirmisiniz?

- Vaqif Əsədullayev: 2006-cı ilin oktyabrın 3-də çəkilişləri yekunlaşdırdıq. Filmin çəkilişində bizə Nazirlər Kabineti, Müdafiə Nazirliyi, Maliyyə Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, şəxsən Elçin Əfəndiyev və Əbülfəs Qarayev yardım edib. Bundan əlavə filmdə istifadə olunan silahlar, toplar xüsusi hazırlanıb. Kömək üçün kimə müraciət edirdiksə hər biri məmnuniyyətlə bizə yardım göstərirdi. Bütün texniki avadanlıqlar, eləcə də işıq və səs avadanlıqları Moskvadan gətirilib. İlk növbədə ssenarinin çox güclü və yüksək səviyyədə olduğunu qeyd etmək lazımdır. İlyas Əfəndiyev şəxsiyyətinin və yaradıcılığının layiqli davamçısı, sözün əsil mənasında xələfi olan görkəmli ədibimiz Elçinin yaradıcılığı yeni nəsrin ideya-estetik cəhətdən formalaşmasında böyük xidmətlər göstərir və göstərməkdə də davam edir. Elə buna görə də yazıları ssenaridən kənara çıxmamışıq. Artıq filmə Elçin Əfəndiyev, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Mədəniyyət və Turizm Nazirliyinin kinematoqrafiya şöbəsinin müdiri Cahangir Məmmədov və Polad Bülbüloğlu baxıb, filmi yüksək qiymətləndiriblər. Filmin kütləvi səhnələrində istifadə olunan geyimlər, silah və toplar təmannasız olaraq "Cavad xan" filmə verilib. Onu da deyim ki, geyimlərdə istifadə olunan parçalar və bəzək aşyaları İrandan gətirilib. Artıq filmi nümayiş etdirmək üçün Rusiya və Türkiyənin mədəniyyət kanalları bizə müraciət ediblər. Hazırda danışıqlar gedir.

- Fəxrəddin Manafov: Filmin son etaplarından biri onun montajı və səsyazmasıdır. Montajı yalnız filmin konsepsiyası bilən adam edə bilər. "Hökmdarın taleyi" adlanan bu film hökmdarın tənhalığı haqqındadır və bu problem dövlətçilik problemidir. Yeni siyasəti ilə onun ətrafının razılaşmaması sonda İbrahim Xəlil xanın tək qalmasına gətirib çıxarır. Bu film Azərbaycanın o vaxtkı xanlıqlarının əmin-amanlıqda yaşaması üçün birləşib bir dövlət yaratmasındandır. Bu montajın yekununu qoyan və qurub qurtaran da filmin ən birinci rejissorudur. Mənim dediyim deyil, bu qanundur. Başqa cür ola da bilməz. Bu filmin bütün montajını ilk setrindən sonuna kimi Vaqif Əsədullayev edib. Montaj kinonun ən vacib məqamdır. Son çəkiliş günümüz 2006-cı ilin 3 oktyabrında olub və 2007-ci ilin avqustun 1-nə qədər olan müddətdə Vaqif Əsədullayev ancaq montajla məşğul olub, bu İnsan bundan başqa heç bir şey düşünmürdü.

- Vaqif Əsədullayev: Fəxrəddin müəllimin qısqısın müdaxilə edərək, deyim ki, bu müddət ərzində mənimlə beraber montajçı Elşad Rəhimov da İşləyib.

- Bəs premyera harada olacaq?

- Vaqif Əsədullayev: Premyera Bakıda olacaq.

- Filmlə bağlı arzularınız?

- Fəxrəddin Manafov: Birce arzum var ki, bu film ekranlara çıxsın və bunun bəhrəsini görün. Azərbaycanlıların gözündə vətənperverlik hissi, Qarabağ dərdini görüm. Bunu görsəm, demək mənim bu həyatda yaşamağıma dəyər...

- Vaqif Əsədullayev: Mənim arzum budur ki, filmi görən Azərbaycan xalqının milli dəyəri, mənliyi daha da yüksəlsin. Biz heç zaman unutmamalıyıq ki, bu filmdəki hadisələr bizim vətənimiz haqqındadır. Qarabağ yaddan çıxmamalıdır...

- Son sözünüz...

- Fəxrəddin Manafov: Çoxları düşünə bilər ki, bu nə müsahibədir, səndən heç kim heç nə soruşmur, gözlərim. Mən onu demək istəyirəm ki, bütün filmin İştirakçıları ilə bir İgid ömrü yaşadıq. Biz hətta elə bir ömür yaşadıq ki, o müddət ərzində kimsə-kimisə sevdi, kiminsə övladı oldu, kiminsə-kimdənsə zəhləsi getdi. Bu film bir ömür idi yaşandı, getdi və bu ömür mənim sevimli peşəm, həm də Qarabağ problemi ilə bağlı idi.